**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ**

**ƏMR**

**10 oktyabr 2022-ci il** **MİHO/1.3-3.1-2022-368**

**"2022-2023-cü ilin payız-qış mövsümündə respublikada qrip və kəskin respirator xəstəliklərə qarşı profilaktik tədbirlərin gücləndirilməsi barədə"**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.14-cü və 14.5-ci bəndlərini rəhbər tutaraq, Ümumdünya Səhiyyə Təşkilatının "Qriplə mübarizəyə dair Qlobal Strategiya 2019-2030" sənədinə uyğun olaraq 2022-2023-cü ilin payız-qış mövsümünün başlanması ilə əlaqədar əhali arasında qrip və kəskin respirator virus infeksiyalarına qarşı profilaktik və əksepidemik tədbirlərin, həmçinin infeksiya üzərində epidemioloji monitorinqin gücləndirilməsi məqsədilə

**əmr edirəm:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın, digər dövlət tibb müəssisələrinin rəhbərlərinə tövsiyə edilsin:

1.1. əhali arasında qrip və kəskin respirator virus xəstəliklərinin profilaktikası barədə media subyektlərindən geniş istifadə etməklə sanitariya-maarifi işi aparılsın;

1.2. qrip və kəskin respirator virus infeksiyalarının yayılmasının qarşısının alınması məqsədi ilə ümumtəhsil və məktəbəqədər uşaq müəssisələrində tibbi müşahidələrin aparılması təşkil edilsin;

1.3. qripə şübhəli xəstələrin, xüsusən uşaqların və yaşlı əhalinin hospitalizasiyası üçün xüsusi palataların ayrılması təmin edilsin;

1.4. zəruri hallarda tibb müəssisələrində məhdudlaşdırıcı rejimin tətbiq edilməsi, tibb

personalının fərdi qoruyucu vasitələrdən istifadə etməsi təmin olunsun;

1.5. profilaktik dezinfeksiya işləri gücləndirilsin;

1.6. ağır kəskin respirator xəstəlik halları barədə məlumat dərhal ərazi gigiyena və epidemiologiya mərkəzlərinə verilsin və qripə şübhəli xəstələrdən götürülmüş nümunələr Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinə çatdırılsın.

2. Respublikanın şəhər və rayonlarının gigiyena və epidemiologiya mərkəzlərinin direktorlarına tapşırılsın ki, ümumtəhsil və məktəbəqədər uşaq müəssisələrində, habelə tibb müəssisələrində sanitariya-gigiyena norma və qaydalarına, dezinfeksiya rejiminə ciddi riayət edilməsinə nəzarət gücləndirilsin.

3. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru S. Həsənovaya və Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinin baş direktoru N. Xəlilova tapşırılsın:

3.1. respublikanın şəhər və rayonlarında qrip və kəskin respirator xəstəliklərə qarşı profilaktik və əksepidemik tədbirlərin aparılmasına metodik köməkliyin göstərilməsi təmin edilsin;

3.2. qrip və kəskin respirator infeksiyalar barədə məlumatlar və bununla bağlı aparılmış laborator müayinələrin nəticələri barədə məlumatlar həftəlik Səhiyyə Nazirliyinə təqdim edilsin.

4. Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin baş direktoru Q.Haqverdiyevə tapşırılsın ki, mövsümi qrip barədə əhali üçün maarifləndirici materialların nəşri təşkil olunsun.

5. İctimaiyyətlə əlaqələr sektorunun müdiri P. Abubəkirova tapşırılsın ki, qrip və kəskin respirator xəstəliklər barədə müvafiq məlumatların media subyektlərində yayılması təmin edilsin.

6. Əmrin icrasına nəzarət nazir müavini Nadir Zeynalova həvalə edilsin.

**Nazir** **Teymur Musayev**